# Kino sahəsində dirçəliş hiss olunur

**Kino sahəsində olan problemlərimiz heç kimə sirr deyil. Ancaq bu gün kinoda baş verən proseslər ümid verir ki, gələcəkdə Azərbaycan kinosu böyük uğurlara imza atsın. Elə odur ki, kino sahəsində olan problemlərlə bağlı rejissor Ramiz Həsənoğlu ilə söhbət etdik.**

- Azərbaycanda kinonun bir dövrü var idi ki, durğunluq yaşadı, inkişaf etmədi. Bu gün isə artıq kino sahəsində dirçəliş hiss olunur, filmlər çəkilir. Gənclər kino sahəsinə cəlb olunur. Təbii ki, bir kino sahəsində çalışan insan kimi bu məni sevindirməyə bilməz. Son illər çəkilən filmlər maraq baxımından məni düşündürür. Təbii ki, bəyəndiyim, bəyənmədiyim məqamlar var. Əsas odur ki, proses gedir.

**- Bu gün çəkilən filmlərin keyfiyyəti necə, sizi qane edirmi?**

- Bilirsiniz, ən gözəl filmin özündə belə nöqsan tapmaq mümkündür. Təbii ki, hansı bucaqdan baxmaqdan asılıdır. Bu yaxınlarda Oqtay Mirqasımovun "Günaydın, mələyim" filmini seyr etdim. Çox ciddi bir proyektdir. Hamı kimi mən də bu filmi gözləyirdim. Filmə baxdıqdan sonra təəssüflənmədim, istənilən işdə nöqsan tapmaq mümkündür. Bu filmdə də nöqsan tapmaq olardı. Ancaq proyektin özü çox maraqlı idi, məni özünə cəlb etdi.


"Dəvətnamə"

**- Bəs aktyor potensialımız necə, qaneedicidirmi?**

- Bizim aktyorlarımız sənətimizin güzgüsüdür. Həmçinin bu sözləri rejissorlara, dramaturqlara, ssenaristlərə də aid etmək olar. Sənətimizdə nə baş verirsə, o aktyorlara, dramaturqlara necə şərait yaradılırsa, o cür də inkişaf hiss olunur. Əgər yaradıcı mühit normaldırsa, şərait istənilən səviyyədədirsə, təbii ki, kino çəkilişində olan yaradıcı heyət daha yaxşı çalışmağa can atır. Şübhəsiz ki, bizim yaxşı aktyor potensialımız var. Mənim buna şübhəm yoxdur. Gördüyüm son tamaşalar, filmlər məndə bu əminliyi yaradıb.

**- Gəlin etiraf edək ki, bu gün qeyri-peşəkarlar da film çəkmək eşqinə düşürlər...**

- Bu elə bir prosesdir ki, bulanıq çayın qabağını almağa bənzəyir. Çay gərək durulsun, çöküntülər yatsın dibinə ki, sakitlik yaransın. Yerindən duran film çəkirsə, bu daha çox sənəti yönəldənlərin diqqətini cəlb eləməlidir. Çünki onlar sənətin inkişafına cavab verən insanlardır.

**- Bəzən qeyri-peşəkar rejissorların filmlərində çox professional aktyorları da görürük.**

- Mən belə deyim də. Bu, artımın, irəliləyişin xəstəliyidir. Bəzən irəli gedən yolundan da sapınır. Ancaq əsas odur ki, yol görünsün, səhvlərlə olsa belə, irəliyə gedə biləsən. Əgər sənəti məcrasında axan çaya bənzətsək, çör-çöp üzdə olur. Sonra çay durulur, axarını tapır, istiqamətini götürür. Sənət də belədir. Çör-çöp də ola bilər, tədricən zaman onları ələkdən keçirəcək və yalnız yaxşılar üzdə qalacaq. Əsas odur ki, inkişafa doğru addımlayasan. Say-seçmə professionallarımız var. Onlardan bəhrələnməliyik, onları unutmamalıyıq. Təbii ki, qeyri-professionalların kinoya gəlməsi, film çəkməsi narahatlıq yaratmalıdır. Mənim də narahatlığım ondan ibarətdir ki, sənətin başında sənətdən xəbəri olan insanlar durmur. Əgər sənət başında professionallar, sənəti dəyərləndirən əsl sənətçilər dursalar, yəqin ki, durum daha normal vəziyyət alar. Şəxsən mənim təcrübəmdə bu hiss olunur. Tutaq ki, televiziya aləmində də qeyri-peşəkarlar var. Bizdə bu məsələlər zəifdir. Əgər bu problemlər aradan qaldırılsa, sənət sahəsində olan bir çox çətinliklər aradan qalxardı. Çox üstüörtülü danışdım, ancaq sənətə qiymət verənlər, yəqin ki, nə demək istədiyimi başa düşərlər. Problemləri aşağıda axtarmaq lazım deyil. Problemləri yuxarıda axtarıb həll etmək lazımdır.


"Bəylik dərsi"

**- Son dövrlər ssenarilərlə bağlı problemlər də yaranır...**

- Son iki ildə çəkilən filmlərin ssenarilərini nəzərə alsaq, onlarda problem hiss olunmur. Bundan sonra nələr çəkiləcəksə, hansı ssenarilər yazılacaqsa, bunların səviyyəsini, keyfiyyətini nəzərə almaq lazımdır...


"Cavid ömrü"


"Nekroloq"